# Azərbaycan Milli Kitabxanası Özbəkistanda beynəlxalq konfransda təmsil olunub

Özbəkistanın Səmərqənd şəhərində "Səmərqənd - MDB-nin mədəniyyət paytaxtı-2024" dövlətlərarası proqram çərçivəsində "Kitabxanalar birliyi: tərəfdaşlıq və innovasiya" mövzusunda Müstəqil Dövlətlər Birliyi (MDB) kitabxanaçılarının beynəlxalq konfransı keçirilib. Konfransda ölkəmizi Azərbaycan Milli Kitabxanasının Elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Ədibə İsmayılova təmsil edib.

Azərbaycan Milli Kitabxanasından AZƏRTAC-a bildirilib ki, tədbirdə Səmərqənd vilayətinin hakimi Erkinjon Turdimov, Özbəkistanın mədəniyyət nazirinin birinci müavini Bahadır Əhmədov, Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjan Xocayev, MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun müşaviri Kamol Rəhimov, Rusiya Dövlət Kitabxanasının baş direktoru, Avrasiya Kitabxanalar Assambleyasının prezidenti Vadim Duda çıxış ediblər. Beynəlxalq konfransda Ədibə İsmayılova "Kitabxana-informasiya sahəsində süni intellektdən istifadənin üstünlükləri" mövzusunda məruzə və təqdimatla çıxış edib.

O qeyd edib ki, süni intellektin kitabxana-informasiya sahəsinə tətbiqi bu sahədə yeni xidmətlərin inkişafı üçün imkanlar açır. Süni intellektin kitabxana və informasiya sahəsinə tətbiqi biblioqrafik verilənlər bazalarının, ilk növbədə elektron kataloqun axtarış imkanlarının təkmilləşdirilməsinə imkan verir. Süni intellektdən istifadə materiallarının indeksləşdirilməsi və kataloqlaşdırılması, istifadəçi sorğularının işlənməsi, məlumatların təhlili və s. kimi bir çox gündəlik işləri avtomatlaşdırmağa imkan verir. Bu, kitabxanalara vaxt və resurslara qənaət etməyə və proseslərin səmərəliliyini artırmağa imkan yaradır.

Azərbaycan.- 2024.- 16 may, № 101.- S.5.